# “Qafqaz Tufandağ Mountain Resort” hotelində istirahət üçün hər cür şərait yaradılıb





Azərbaycan Prezidenti İlham Əliyev avqustun 10-da Qəbələdə “Qafqaz Tufandağ Mountain Resort” hotelinin açılışında iştirak edib.

Dövlət başçısı hotelin rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, Qəbələnin əsas turizm infrastrukturu obyektləri sırasında xüsusi özəlliyi ilə seçilən bu hotelin inşası 2014-2016-cı illərdə “Şinkar Holdinq” MMC tərəfindən həyata keçirilib.

***Ardı 4-cü səh.***

# “Qafqaz Tufandağ Mountain Resort” hotelində istirahət üçün hər cür şərait yaradılıb

*Əvvəli 3-cü səh.*

Ərazisi 4 hektar olan hotelin tikinti sahəsi 3400 kvadratmetrdir. Beşmərtəbəli binada 50 otaq, o cümlədən 23 standart, 12 ailəvi, 14 junior suite, 1 kral nömrəsi yerləşir. Bununla yanaşı, ərazidə 3 kottec də yaradılıb. Hoteldə 100 nəfərlik kafe-bar, 400 nəfərlik kafe, 500 nəfərlik steak və şərab evi, 200 nəfərlik “Duruca” yeməkxanası, 500 nəfərlik “Qəbələ” kafesi fəaliyyət göstərir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün geniş imkanlar var. Ümumi sahəsi 560 kvadratmetr olan SPA və idman mərkəzində zəruri avadanlıqlar quraşdırılıb, istirahət üçün hər cür şərait yaradılıb.



Hoteldə uşaqlar üçün ayrıca yeməkxana və oyun zalı yaradılıb. “Qafqaz Tufandağ Mountain Resort”da sahəsi 1692 kvadratmetr olan terras yaradılıb, xizək ləvazimatlarının kirayəsi və satışı mağazası açılıb, xizək yolu eskalatoru qurulub və təlimlər üçün otaqlar inşa edilib. Bu da qış mövsümündə hoteldə dincələn qonaqların xidmətlərdən yüksək səviyyədə istifadə etmələrinə geniş imkanlar açır. Hotel kompleksində 250 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.

Beləliklə, turizmin əsas komponenti olan hotel biznesinin Qəbələdə inkişaf etdirilməsi və onun müasir standartlar səviyyəsində qurulması yaxın gələcəkdə artıq bu bölgəmizin dünyanın nüfuzlu istirahət məkanlarından birinə çevrilməsinə təminat verir.

**AZƏRTAC**